**UOT94**

# "AZƏRBAYCAN QOŞUNLARININ" İRANDAN ÇIXARILMASINA DAİR İRAN VƏ AZƏRBAYCAN SSR ARASINDA APARILAN DİPLOMATİK DANIŞIQLAR (1920-1921-ci illər)

**Sevinc MƏMMƏDOVA***

***Açar sözlər:*** *Azərbaycan SSR, İran, Gilan, Azərbaycan qoşunları, diplomatik danışıqlar, işğalçılıq siyasəti.*

## Giriş

Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyəti yarandığı vaxtdan onun Rusiyadan ayrılmasını siyasi bir akt kimi qəbul etmirdi. Azərbaycanın sovet qoşunları tərəfindən işğalı ilə yanaşı Bakı neftinə və zəngin sərvətə sahib olmaq bolşevik Rusiyanın Cənubi Qafqaz planının bir hissəsini təşkil edirdi. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq CümhuriyyətiSovet Rusiyası tərəfindən devrildi və Azərbaycan Sovet Sosialist Respublikası elan edildi. Aprel işğalının uğuru Sovet Rusiyası V.İ.Lenin və bir sıra Avropa kommunist təşkilatları tərəfindən 1919-cu ildə Moskvada yaradılmış və "dünya inqilabı" şüarı ilə çıxış edən Kommunist İnternasionalının Şərq siyasəti xəttinə uyğun olaraq İranda sosialist hərəkatını gücləndirməyə ruhlandırdı. Eyni zamanda ingilislərin şimala doğru irəliləməsinin qarşısını almaq zərurəti meydana çıxdı. Belə ki, 1907-ci ildə Rusiya-İngiltərə arasında bağlanmış müqaviləyə görə İranın şimalı Rusiyanın, cənub hissəsi isə İngiltərənin nəzarətində idi. Lakin 1917-ci il Fevral inqilabından sonra rusların İranın şimal əyalətlərini tərk etməsindən istifadə edən İngiltərə 1919-cu ilin avqust ayının 9-da İranla yeni müqavilə imzaladı. Bu müqavilənin şərtlərinə görə İran demək olar ki, bütünlükdə İngiltərənin protektoratlığına çevrildi. İngilislərin İrandakı nüfuzunun artmasından və şimala doğru hərəkət etməsindən narahat olan Sovet Rusiyası yenicə sovetləşdirilmiş Azərbaycan SSR bayrağı altında İranın şimalına, Gilan vilayətinin Ənzəli limanına qoşun yeritdi. Azərbaycanın işğalı ilə eyni vaxtda İrana hərbi təcavüz etməkdə Rusiyanın əsas məqsədi strateji əhəmiyyətə malik Ənzəlin tutmaqla yanaşı ingilisləri İrandan qovub çıxartmaq və eyni zamanda Xəzər dənizindəki nəzarəti əldə saxlamaq idi. Sovet Rusiyasının İrana hərbi müdaxiləsinin Az.SSR tərəfindən həyata keçirilməsinin əsas səbəbi özünü beynəlxalq təzyiqdən qorumaq idisə, daha bir səbəbi də var idi. Belə ki, 1917-ci il 26 oktyabrda II Sovetlər qurultayında qəbul etdiyi sülh haqqında dekretə görə çar hökuməti zamanı bağlanmış bütün qeyri-bərabər müqavilələr ləğv edildiyindən "sülh tərəfdarı" mövqeyində duran Rusiya İrana birbaşa qoşun yeridə bilməzdi.

## 1. "Az.SSR qoşunlarının" İranın şimalına yeridilməsi

İngilis qoşunlarının Qəzvindən İranın şimalına doğru hərəkət etməsindən narahat olan Rusiyanın Qırmızı Xəzər Donanması 1920-ci il may ayının 18-də Azərbaycandan qaçmış ağqvardiyaçıları qovmaq və "aparılan əmlakı geri qaytarmaq" bəhanəsilə İranın şimalından su sərhədlərini pozaraq Ənzəli limanına hücum etdi.

Ənzəli əməliyyatından əvvəl bolşeviklər İranda yerli əhalinin rəğbətini qazanmaq və özlərinə dayaq yaratmaq məqsədilə Volqa-Xəzər hərbi donanmasının komandanı Feodor Roskolnikovu gizli surətdə Gilana göndərmişdilər. Roskolnikov həmin dövr Gilan geniş vüsət almış Cəngəlilər xalq hərəkatının rəhbəri Mirzə Kiçik xanla görüşmüş və onunla ümumi razılığa gələrək Sovet Rusiyasının hərəkata silah-sursatla kömək edəcəyinə söz vermişdi. I Dünya müharibəsi illərində Alman dövlətinin dəstəyi ilə yaranan Cəngəlilər hərəkatı ingilislər əleyhinə yönəlmiş milli-azadlıq hərəkatına çevrilmişdi. Bu növ hərəkatları dəstəkləyən bolşeviklər də onları çox asanlıqla öz tərəflərinə çəkə bildi-

*AMEA akad. Z Bünyadov adına Şərqşünaslıq İnstitutu
e-mail: sevinc.mammedova81@gmail.com*

lər. Bolşeviklərin Ənzəliyə hücum günü Mirzə Kiçik xan Gilan sakinlərinə elan etdi ki, Cəngəlilər hərəkatının qarşıya qoyduğu ən mühüm vəzifəsi İran vətəndaşlarının rifahı, ölkənin müstəqilliyi və eyni zamanda işğalçılardan azad olunmasıdır. May ayının 23-də Ənzəli yaxınlığında F.Raskolnikov və S.Orconikidze Mirzə Kiçik xanla yenidən görüşüb danışıqlar aparırlar. Bu danışıqların sonunda bolşevik xadimlər belə bir fikrə gəlirlər ki, Mirzə Kiçik xan ideyaca əsl kommunistdir. Bolşeviklərlə əməkdaşlığa başlayan Mirzə Kiçik xan 1920-ci il iyunun 4-də ingilisləri Rəştdən tamamilə qovub çıxarır və öz rəhbərliyi altında İran Sovet Respublikasının yarandığı elan edir. Ənzəli əməliyyatı zamanı Gilana rus qoşunları ilə bərabər iranlı fəhlələr və kommunistlər də gəlmişdilər. 1920 ci il iyunun 22-də yerli və gəlmə kommunistlərin birgə təşkilatçılığı ilə İran kommunist partiyasının I qurultayı keçirilir. Qurultayda İran kommunist partiyasının yaradıldığı elan edilsə də, əslində bu yeni partiya deyildi. O, hələ 1917-ci ildə Bakıda, iranlı fəhlələr tərəfindən yaradılmış "Ədalət" İran Sosial-demokrat fəhlə partiyasının bazasında yaradılmış və 1920-ci ilin əvvəllərində "Ədalət" İran kommunist partiyasına çevrilmiş bir təşkilat idi.İndi bu partiya bilavasitə İranda öz rəsmi təsis qurultayını keçirdi və onun üzvləri yeni yaradılmış Gilan sosialist respublikasında fəal rəhbər mövqelər tutdu. (6, səh.166)

1920-ci il iyulun 16-da RSFSR XXİK Georgi Çiçerin Rusiyanı beynəlxalq təzyiqlərdən qorumaq üçün İranın Xarici İşlər Naziri Nüsrətüddövlə Firuza bildirmişdi ki, Rusiya hökuməti Gilandakı inqilabçılara və sol qüvvələrə heç bir yardım göstərmir və İranın daxili işlərinə də qarışmır. Çar Rusiyasından fərqli olaraq Sovet hökuməti İranla mehriban qonşuluq siyasəti yürüdür. (8, s.729)

Ənzəli əməliyyatı və Gilan hərəkatının təsirindən ölkəni bürüyən dərin siyasi böhran nəticəsində ingilispərəst Vüsuq üd-Dövlə hökuməti iyunun 25-də istefaya getdi. Müşir üd-Dövlənin başçılığı ilə təşkil olunmuş yeni kabinet İranın xarici siyasətində əhəmiyyətli dərəcədə dəyişikliyə səbəb oldu. O Gilan hadisələrinin həllini Rusiya ilə münasibətlərin normallaşmasında və diplomatik danışıqların aparılmasında görürdü.

### 2. Münaqişənin həllində Az.SSR-İran diplomatik danışıqları

İrana "Az.SSR"-in hərbi qüvvələrinin yeridildiyini və məhz Qafqaz bolşeviklərinin Gilanda Mirzə Kiçik xana kömək edərək milli-azadlıq hərəkatını alovlandırdığını nəzərə alan İran hökuməti yaranan problemləri həll etmək üçün ilk növbədə Az.SSR ilə diplomatik danışıqlar yolunu məqsədəuyğun hesab etdi. Eyni zamanda aprel işğalından sonra sərhəddə əvvəlki qayda-qanunun yaradılması, qiyamçı qrupların zərərsizləşdirilməsi, poçt-rabitə sisteminin qaydaya salınması və s. Problemlər İranla Az.SSR arasında müzakirə olunacaq vacib məsələlərdən idi. 1920-ci ilin iyun ayında İran XİN-i İranın Aşqabadda bolşeviklərlə danışıqlar aparmaq üçün ezam olunan diplomatik heyətinə, Az.SSR hökuməti ilə danışıqlar aparmaq üçün başda Əhməd xan Mənşir ül-Mülk olmaqla diplomatik heyətin yolüstü Bakıya ezam edilməsi ilə bağlı teleqraf göndərdi (12, s.328)

Bu zaman İranın Moskvaya yeni təyin olunmuş səfiri Əli Qulu xan Ənsari Müşavir ül-Məmalik adı çəkilən diplomatik heyətin Bakıya ezam olunmasını məqbul hesab etmirdi. Onun fikrincə, Mənşir ül-Mülkün Bakı səfəri Moskvada qarşıdurma və problemlər yaradacaq. Çünki İran rəsmisi yaxşı bilirdi ki, Moskvanın xəbəri olmadan Bakı heç bir müstəqil qərar qəbul edə bilməz. İranın şimal sərhədlərini pozan ordu Az.SSR bayrağı altında olsa da, Ənzəlidə baş verən bütün hadisələr Moskvanın nəzarətində idi. Bu səbəbdən Müşavir ül-Məmalik Bakı səfərinin müvəqqəti olaraq ləğv edilməsini düzgün hesab edirdi. O, İran XİN-nə göndərdiyi raportunda qeyd edirdi ki, "Moskvadan əvvəl Bakıda danışıqların aparılması sonradan İran dövlətinə əlavə problemlər yarada bilər. Əgər heyət Bakıya getsə, apardığı müzakirələrdə ilk növbədə bildirməlidir ki, Az.SSR nə üçün Gilan hadisələrinə qarışaraq oraya qoşun, gəmi və silah-sursat göndərmişdir? Axı İran dövləti bitərəf dövlət olmaqla həmişə öz qonşuları ilə mehriban qonşuluq münasibətlərdə olmuşdur. Az.SSR-in İrana qarşı bu tədbirləri tamamilə gözlədiklərimizin əksidir" (12; s.329) Bundan əlavə Mənşür ül-Mülkə danışıqların gedişində Az.SSR-dəki İran təbəələrinin hüquqlarının müdafiəsi və hakimiyyət dəyişikliyi zamanı qarət olunmuş malların geri qaytarılması məsələlərinin də müzakirəsi tövsiyə olunurdu.

Sentyabr ayının əvvəllərində Az.SSR Xarici İşlər Komissarlığı İranın fövqəladə heyətini qəbul etməyə razı olduğunu bildirsə də, heyətin Bakı səfərinin tarixi dəqiq məlum deyildi. Təəssüf ki, səfər haqqında məlumatı yalnız İran XİN-nin 1920-ci il oktyabr ayındakı hesabat və raportlarından ala bilirik. Mənşür ül-Mülkün Bakıda siyasi fəaliyyəti ilə bağlı xarici işlər nazirliyinə göndərdiyi hesabatlarında bildirirdi ki, Bakıya daxil olduğu ilk gündən Az.SSR Xarici İşlər komissarlığı ilə apardığı danışıqlarda İranın şimal əyalətlərindən Az.SSR qoşunlarının çıxarılması, İran konsulluqlarının və nümayəndəliklərinin həbs edilmiş məmurlarının azad edilməsi, həmçinin malları müsadirə edilmiş, hətta bəziləri həbs olunmuş İran təbəələrinin vəziyyətinin araşdırılması müzakirə olundu. Mənşir ül-Mülk hesabatında qeyd edirdi ki, Az.SSR rəsmiləri bildirirlər ki, guya İranın azadlıq sevərlərinə kömək məqsədi ilə İrana qoşun yeridilib". Azərbaycan rəsmiləri ilə apardığı müzakirələrdən sonra Mənşir ül-Mülkdə belə təəssürat yarandı ki, Az.SSR hər hansı bir məsələni müstəqil şəkildə həll etmək iqtidarında deyil və idarəçilik baxımından Sovet Rusiyası ilə əvvəlki Çar Rusiyası arasında heç bir fərq yoxdur. Həmişəki kimi, bütün məsələlər yalnız Moskva rəsmiləri ilə aparılmış müzakirələrdə öz həllini tapa bilər. (12; s.329) Mənşür-ül Mülkün Az.SSR rəhbərləri ilə apardığı görüşlərin nəticəsiz olduğunu görən İran hökuməti Bakıya yenidən diplomatik heyətin göndərilməsini qərara aldı. İranın Bakıdakı konsulluğu Az.SSR Xalq Xarici İşlər komissarlığına İranın Moskvaya təyin olunmuş fövqəladə səfiri Müşavir ül-Məmalikin öz heyəti ilə birgə tezliklə Bakıya səfər edəcəyini bildirdi (2, v. 50).

1920-ci ilin oktyabr ayında Müşavir ül-Məmalik 10 nəfərlik heyətlə Bakıya səfər etdi. O, Bakıda Az.SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovla, xarici işlər komissarı M.D.Hüseynovla, habelə, RK(b)P MK-nın Qafqaz Bürosunun üzvi Q.Orconikidze ilə görüşdü. Danışıqlar zamanı Sovet Rusiyası hərbi hissələrinin İrandan çıxarılması və Rəşt cəbhəsinin ləğv edilməsi geniş müzakirə olundu. Səfirlə danışıqlarda N.Nərimanov Gilandakı ordunun və eyni zamanda üç gün əvvəl ingilislər əleyhinə yönəlmiş inqilaba dəstək məqsədi ilə ora göndərilən yeni qüvvələrin də Azərbaycana məxsus olduğunu açıq şəkildə bildirdi. Nərimanovun bu fikrinə istinad edən Orconikidze Sovet Rusiyasının İranda heç bir ordusunun olmadığını və eyni zamanda məsələnin həllində İran hökuməti ilə Azərbaycan hökuməti arasında vasitəçi olmağa hazır olduğunu bəyan etdi. (4, səh.112)

Əslində Nərimanov ordu ilə yanaşı Azərbaycandan kommunistlərin də İrana göndərilməsinə şərait yaradırdı. O, Sovet Azərbaycanı ilə yanaşı İran Azərbaycanının da sovetləşdirilməsinin tərəfdarı idi. Onu fikrincə bu yolla hər iki Azərbaycanın birləşdirilməsinə nail olmaq mümkün idi.

Müşavir ül-Məmalik Moskvaya qayıtdıqdan sonra İran hökuməti danışıqları davam etdirmək üçün Mənşür ül-Mülkü yenidən Azərbaycana ezam etdi. 1920-ci il oktyabr ayının 28-də Az.SSR XKS-nin sədri N.Nərimanovla baş tutan görüşündə Mənşir ül-Mülk Ənzəli məsələsi ilə yanaşı İran təbəələrinin itirdikləri mallar haqqında da onunla geniş şəkildə söhbət etdi. Öz növbəsində N.Nərimanov İran təbəələrinin itirdikləri malların olduğu kimi qaytarılacağına, tələf olunmuş malların əvəzində isə pul və ya neft ilə ödəniləcəyinə söz verdi (12, s.321).

Qoşunların İranın şimalını tərk etməsi ilə bağlı Az.SSR-lə gedən müzakirələrin faydasız olduğunu görən İran hökuməti məsələnin həllini Sovet Rusiyası ilə danışıqlarda gördü. 1920-ci il noyabrın 9-da səfir Müşavil ül-Məmalik RSFSR XİK-na İrandan Azərbaycan qoşunlarının çıxarılması ilə bağlı nota göndərdi. 1921-ci il yanvarın 21-də RSFSR XXİK müavini L.Qaraxan səfirin notasına cavabında siyasi manevr edərək İranın daxilində gedən siyasi proseslərin izahını səfirdən tələb edərək bildirdi ki, Ənzəli və Rəştə Az.SSR qoşunlarının yeridilməsinə səbəb Az.SSR sərhədlərini ingilislərdən qorumaqdır. Rus diplomatı yaranmış vəziyyətdən çıxış yolunu İranın rəhbərliyi altında Azərbaycan-İngilis komissiyasının yaradılmasında görürdü. Və komissiyanın keçirilməsi üçün Tehran və ya Qəzvin şəhərlərini münasib hesab edirdi (11, s.75).

L.Qaraxan belə məzmunlu cavabı ilə öz dövlətinin mövqeyini açıq şəkildə bildirirdi. Azərbaycan ordusunun İranın şimalında olmasını Sovet hökuməti dairələri Rusiya-İran arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi ilə bağlayırdılar. Əslində Az.SSR bayrağı altın-

da qoşunların İranda yerləşdirilməsi Sovet Rusiyasının xarici siyasətinin bir hissəsini təşkil edirdi. Rusiyanın İran hökuməti qarşısında qoyduğu tələblər sırf öz xeyrinə idi. Belə ki, İngilislərin İranı tamamilə tərk etdiyi halda rəsmi Bakıya "təzyiq göstəriləcəyi" və qoşunların İranın şimalını tez bir zamanda tərk edəcəyi buna əyani sübut idi.

### 3.Gilan inqilabının yatırılması və qoşunların İranın şimalını tərk etməsi

1921-ci il 26 fevralda Sovet Rusiyası ilə İran arasında 26 maddədən ibarət müqavilə imzalandı və hər iki dövlət yaxın müttəfiqə çevrildi. Bu bolşeviklərlə şərq dövləti arasında imzalanmış ilk müqavilə hesab olunur. Sovet-İran müqaviləsinin planı 1920-ci ilin dekabrında G.Çiçerin tərəfindən hazırlanmışdı. Müqavilənin imzalanması ilə bağlı dekabrın 19-da səfir Müşavir ül-Məmalik Leninin qəbulunda oldu və danışıqlar zamanı səfir "Az.SSR hərbi hissələrinin" İranın şimalından çıxarılmasını tələb etdikdə, L.Qaraxan cavab verdi ki, Sovet hökuməti Az.SSR-in daxili işinə qarışa bilməz. Lakin hamıya yaxşı məlum idi ki, SSRİ-nin razılığı olmadan tabeçiliyində olan respublikalar müstəqil siyasi və hərbi qərar verə bilməzlər. İmzalanmış müqavilə İran ilə Sovet Rusiyası arasındakı münasibətlərdə "yeni diplomatik səhifə" açdı.Bu müqavilənin ən vacib xüsusiyyəti Qırmızı Ordunun İrandan 1921-ci il sentyabrın 21-dək çıxarılması idi (13).

"Gilan inqilabı" ingilislərin İranda mövqeyini daha da artırırdı. Müqavilədən sonra artıq Gilan inqilabının da Rusiya üçün heç bir əhəmiyyəti olmadığından Qırmızı Ordu İran torpaqlarını tərk etməyə başladı.

Azərbaycan tərəfi qoşunların çıxarılması ilə bağlı məsələlərin həll edilməsi üçün İran nümayəndəliyinin rəhbərliyi ilə Azərbaycan, İngilis və İran qarışıq hərbi komissiyanın yaradılması təklif etdi. Eyni zamanda komissiyanın qərarı ilə hər iki tərəfin qoşunu İrandan eyni vaxtda çıxmalı idi. Səfir Müşavir ül-Məmalik Rusiya XXİK-na göndərdiyi 1921-ci il 18 mart tarixli notasında İrandan Azərbaycan və ingilis qoşunlarının çıxarılması üçün təklif olunan komissiyanın yaradılması ilə yanaşı, RSFSR hökumətinin rəsmi nümayəndəsinin də komissiyanın tərkibində olmasını məqsədə uyğun hesab edirdi (10, s. 12).

Müşavir ül-Məmalikin notasına cavab olaraq 3 gün sonra RSFSR Xalq Xarici İşlər Komissarı Çiçerin səfirə məktubunda Azərbaycan və ingilis qoşunlarının İrandan çıxarılması ilə bağlı komissiyanın yaradılmasını məqbul hesab etməklə yanaşı danışıqlarda Rusiya nümayəndələrinin də iştirakına qarşı olmadığını bildirdi. Sovet hökuməti Azərbaycan-ingilis komissiyasında iştirak etməyə hazır olmaqla bərabər yaxın günlərdə komissiyada iştirak edəcək Rusiya nümayəndələrinin adlarının açıqlanacağını da vurğuladı (10, s.13).

1921-ci il aprelin 13-də bolşevik hərbi hissələrinin, onların ardınca da ingilis qoşunlarının İranı tərk etməsi artıq İran texniki-hərbi komissiyanın yaradılmasına ehtiyac qalmadığını göstərdi.

Bolşevik hökumət liderləri də Az.SSR ordu hissələrinin İrandan çıxarılmasının tərəfdarı idilər. "Azərbaycan hərbi hissələrinə" başı qarışan İran hökuməti ingilislərə müqavimət göstərmək iqtidarında deyildi. Rusiya İran dövləti ilə siyasi münasibətlərinin yaxşılaşdırılmasında Azərbaycan qoşunlarının İranı tərk etməsini daha münasib hesab edirdi. RSFSR-in İrandakı səfirliyinin nümayəndəsi 18 iyul 1921-ci ildə Az.SSR XXİK-nın müavini Andreyevə göndərdiyi gizli məktubunda Ənzəli sərhədində sərnişin və yükdaşımada yaranan problemləri aradan qaldırmaq üçün İranla siyasi və iqtisadi münasibətləri qaydaya salmağın mühüm olduğunu bildirirdi. Məktubda həmçinin bu məsələləri RSFSR-in Zaqafqaziya respublikalarındakı səlahiyyətli nümayəndəsi Q.V.Leqranla müzakirə etmək tövsiyə olunurdu (3, v.213). Rus diplomatının məktubundan sonra Q.V.Leqran 1921-ci il sentyabrın 20-də Az.SSR Xarici işlər komissarı M.D.Hüseynova göndərdiyi məktubunda yazırdı: "İran hökumətinin ölkənin şimal hissəsinə daha çox diqqət verməsi ingilislərlə mübarizəsini zəiflədir" (7, v.20-27 ). Bir həftə sonra Leqran bir daha M.Hüseynova bu məsələ ilə bağlı bildirdi ki, Azərbaycanın Ənzəlidəki konsulluğu Kiçik xanla və Ehsanulla xanla tez-tez əlaqə saxlayır, onlara kömək edir və Bakıdan silah göndərir. Bu bizim Tehran siyasətimizə ziddir. Bununla da, ingilislər Tehran hökuməti ilə yaxınlaşırlar (7, v. 28-29).

Qırmızı Ordu İranın şimal torpaqlarını tərk etsə də, Az.SSR hərbi hissələri hələ də İranda qalmaqda idi. Hərbi qüvvələrin İrandan çıxarılmaması İran-Az.SSR siyasi münasibətlərinə təsir edirdi. İranın Bakıdakı konsulu Said-ül Vüzəra regionda baş verən siyasi proseslərlə yaxından tanış olaraq yenidən Az.SSR-lə danışıqların aparılmasını məqbul hesab edirdi. Bu dövrdə İran dövlətinin səyləri daha çox Gilan məsələləri üzərində cəmlənmişdi. Az.SSR xalq xarici işlər komissarı M.Hüseynov 1921-ci ilin avqustunda Said-ül Vüzaraya və Tiflisdəki baş konsul Əhməd Əminzadəyə Azərbaycan hərbi hissələrinin Gilandan tamamilə çıxarılmasının tərəfdarı olduğunu bildirmişdi. M.Hüseynovun məlumatı ilə tanış olan konsul Ə.Əminzadə İranın XİN-nə yenidən Gilan məsələsinin diqqətdən kənarda qalmamasını və dövlət üçün önəmli olduğunu sübut etmək üçün yenidən Qafqaza xüsusi bir fövqəladə heyətin göndərilməsi haqda təklif irəli sürdü (12, s.407). O, bu Heyətə Qafqazı yaxşı tanıyan, əvvəllər İranın Tiflisdəki konsulu olmuş Müəziz-dövlənin başçılıq etməsini məqsədə uyğun hesab edirdi. Əminzadənin təklifi ilə uzun bir fasilədən sonra İran-Az.SSR siyasi münasibətləri yenidən diqqət mərkəzində oldu. Müzakirə olunacaq məsələlər içərisində ən mühümü Bakının Gilana hərbi qüvvələr göndərməsi və Ənzəlinin boşaldılması idi. Lakin oktyabrın 22-də Az.SSR qoşunlarının İrandan tamamilə çıxarılması ilə Azərbaycana ediləcək diplomatik səfərlər təxirə salındı.

**Nəticə**

İngilisləri İrandan qovub çıxartmaq məqsədi ilə Sovet Rusiyası Az.SSR ordusu adı altında İranın şimalına qoşun yeritdi. Bolşeviklər dayaq yaratmaq məqsədilə əvvəlcə Cəngəlilər hərəkatı ilə müttəfiq oldular. Gilanda bolşevik hökuməti quruldu. Güclü orduya malik olmayan İran dövləti şimal sərhədini hərbi təcavüzdən qorumaq üçün diplomatik danışıqlar yolunu seçdi. İran hökuməti danışıqları əvvəlcə Az.SSR hökuməti ilə aparsa da, sonradan bunun faydasız olduğunu görüb Sovet Rusiyası ilə müqavilə bağladı. Sovet-İran müqaviləsindən sonra istəyinə nail olan Rusiyanın İranda başqa maraqları qalmadı. Belə bir vəziyyətdə Gilan hərəkatının davam etməsinin faydasız olduğunu görən Rusiyanın inqilaba qarşı siyasəti kəskin dəyişdi və öz dövlət maraqları naminəKominternin ideoloji prinsiplərindən imtina etdi. İkitərəfli gedən mürəkkəb danışıqlardan sonra əvvəlcə Sovet Rusiyası, daha sonra "Az.SSR qoşunları" İranın şimalını tərk etdilər. Cəngəlilər hərəkatı yatırıldı. Bolşeviklərdən qisas alan Mirzə Kiçik xan İran kommunist Partiyasının rəhbəri Heydər Xan Əmioğlunu öldürdü və az sonra özü də şah qoşunları tərəfindən izlənərək öldürüldü. Əslində bolşeviklərin İranı tərk etməsində əsas səbəb ingilislərin İranı tərk etməsi və SSRİ-nin uzaqdan inqilaba dəstək vermək qüvvəsinin olmaması idi.

## ƏDƏBİYYAT


1. ARDA: f. 28. siy. 1. iş 72
2. ARDA: f. 28. siy. 1. iş 577
3. ARDA: f. 28. siy.1. iş 172
4. Həsənli Cəmil. (2012) Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939). Bakı
5. İbrahimov (Şahin) Tağı. (1993) İran kommunist partiyasının yaranmısı. Bakı
6. Rüstəmova-Tohidi Solmaz. (2001) Kominternin Şərq siyasəti və İran. Bakı
7. SPİHDA f.609, siy.1, iş 96
8. Документы внешней политики СССР. (1959) Том II. Москва. Госполитиздат.
9. Документы внешней политики СССР. (1959) Том III. Москва. Госполитиздат.
10. Документы внешней политики СССР. (1960) Том 4. Москва. Госполитиздат.
11. М.И. Володарский. (1985) Советы и их южные соседи Иран и Афганистан (1917 - 1933). Лондон
12. کاوه بیات (1388) . توفان بر فراز قفقا. ( نگاهی به مناسبات منطقهای ایران و جمهوری اذرباجان ارمنستان و گرجستان در دوره نخست استقلال 1917-1921) . ترکز اسناد و تاریخ دیپلماسی. تهران

13. https://www.seratnews.com/.../چرا-جمهوری-سوسیالیستی-گ
14. دکتر ایرج ذوقی. (1367) ایران و قدرتهای بزرگ 1925-1900. (تاریخ روابط سیاسی). تهران
15. روبط تارخی ایران و روسیه. (1390) (نگاه اجمالی به کشور بزرگ روسیه). تهران
16. http://pahlaviha.pchi.ir/show.php?page=contents&id=13376

## *РЕЗЮМЕ*

***Севиндж Мамедова***

### *Дипломатические переговоры между Ираном и Азербайджанской ССР о выводе азербайджанских войск из Ирана (1920-1921 г.)*

***Ключевые слова:*** *Азербайджанская ССР, Иран, Гилян, азербайджанские войска, дипломатические переговоры, оккупационная политика*

18 мая 1920 года Красная Армия под именем “азербайджанских войск”, нарушив северные границы Ирана, оккупировала порт Энзели. В результате военных операций “азербайджанские военные” оккупировали северную часть Ирана. Перед операцией Энзели командующий Каспийским флотом Феодор Раскольников прибывает в Гилян для объединения с командующим отряда дженгелийцев Мирзой-Кучек ханом. После встречи с ним Раскольников обещает оснастить отряд боеприпасами и оружием.

Не имея достаточных сил для противостояния военному вторжению, Иранское государство предпочло прибегнуть к дипломатическим переговорам. Для начала переговоров с руководителями Аз.ССР иранская делегация во главе с Аликулу Ансари Мошавер-оль-Мемалеком была отправлена в Баку. Мошавер-оль-Мемалек в этот период являлся послом Ирана в Росии. В октябре 1920 года Мошавер-оль-Мемалек отправился в Баку с делегацией численностью в 10 человек. Во время переговоров были обсуждены вопросы о выводе воинских подразделений с северного региона Ирана и ликвидации Рештского фронта .

26 февраля 1921года между Советской Россий и Ираном был заключен договор, по которому оба государства стали союзниками. После заключения договора сначала большевистские воинские части, а затем британские войска покинули Иран. Учитывая, что Гилянская революция не имела никакой ценности и значимости для России, Аз.ССР 22 октября полностью вывела свои войска из Ирана.

## *SUMMARY*

**_Sevinj Mammadova_**

***Diplomatic Talks Between Iran and Azerbaijani SSR on Extraction of "Azerbaijan's troops" from Iran***

***Keywords:*** *Azerbaijani SSR, Iran, Gilan, Azerbaijan troops, diplomatic negotiations, occupation policy*


On May 18, 1920, the Red Army under the name of "Azerbaijani troops", having violated the northern borders of Iran, occupied the port of Anzali.As a result of military operations, "Azerbaijani military" forces occupied the northern part of Iran.Before Anzeli's operation, the commander of the Caspian Fleet Theodor Raskolnikov arrives in Gilan to meet the commander of the Jengeli detachment Mirza-Kuchek khan. After meeting with him, Raskolnikov promises to equip the detachment with ammunition and weapons.

Lacking sufficient forces to resist a military invasion, the Iranian state chose to resort to diplomatic negotiations. Firstly they sent a delegation to Baku under the head of the Aliqulu Ansari State Counselor to negotiate with Azerbaijan SSR. The State Counselor was then Iran's newly appointed ambassador to Russia. In October 1920, The State Counselor went to Baku with a delegation of 10 people. During the talks, issues were discussed about the withdrawal of military units from the northern region of Iran and the elimination of the Rasht front.

On February 26, 1921, the two countries became closer allies due to the Treaty between Soviet Russia and İran. After the Treaty, the bolshevik military units at first, and then the British troops left Iran. On October 22 of that year, the Azerbaijan SSR troops were completely removed from Iran because of the insignificance of the Gilan revolution for Russia.